| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 10.08.2004 |
| QEYDİYYAT NÖMRƏSİ | 113 |
| ADI | “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 12-08-2004, Nəşr nömrəsi: 186), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2004, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 621) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 12.08.2004 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 020.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

~~1.3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin nəzdində Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;~~[1]

1.4. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun:

1.4.1. 4.3-cü maddəsinə müvafiq olaraq həmin qanun qüvvəyə mindiyi günədək daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatını aparmış müvafiq icra hakimiyyəti orqanları tərəfindən qeyd edilən qanuna əsasən dövlət reyestrində saxlanılmalı olan məlumatların qeydiyyat orqanına verilməsinin mərhələlərinə və müddətlərinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.2. 7-ci maddəsinə müvafiq olaraq daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı üçün zəruri olan mərzçəkmə və inventarlaşdırma işlərinin aparılması, habelə müvafiq texniki sənədlərin tərtibi qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

~~*1.4.3. 12.2-ci maddəsinə müvafiq olaraq dövlət reyestrində çıxarışın forması və tərkibi qaydasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;*~~ [2]

1.4.4. 14.2-ci maddəsinə müvafiq olaraq hüquq pozuntusuna yol verən vəzifəli şəxslərin inzibati məsuliyyətini müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

1.4.5. 23-cü maddəsinə müvafiq olaraq hüquqların dövlət qeydiyyatı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4.6. öz səlahiyyətləri daxilində "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, iki ay müddətində "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sisteminin mərhələlər üzrə inkişafının Tədbirlər planının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.[3]

4. Müəyyən edilsin ki:

~~4.1. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindiyi gündən Bakı şəhər dövlət texniki inventarlaşdırma orqanı və Azərbaycan Respublikasının Dövlət Tikinti və Arxitektura Komitəsinin dövlət texniki inventarlaşdırma orqanları eyni zamanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin tabeliyindədir;~~[4]

4.2. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun:

4.2.1. *binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər* üzərində hüquqların qeydiyyatı ilə bağlı səlahiyyətləri, 1.0.4-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın. 12.1-ci və 23.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın, 4.3-cü maddəsinin ikinci cümləsində, 5.2-ci, 5.3-cü, 5.4-cü, ~~6.2-ci,~~ 9.2-ci, 9.5-ci, 10.2-ci, 12.1-ci, 14.1-ci, 14.4-cü, 16.1-ci, 18.2-ci, 20.3-cü, 22.2-ci və 23.2-ci maddələrində nəzərdə tutulmuş "qeydiyyat orqanı"nın səlahiyyətlərini Əmlak Məsələləri Dövlət Komitəsi həyata keçirir;[5]

4.2.2. 4.1-ci maddəsinə əsasən "Daşınmaz əmlakın dövlət qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanunu qüvvəyə mindiyi günədək daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatını aparmış "qeydiyyat orqanları", 4.3-cü maddəsinin birinci cümləsinə (birinci halda) və ikinci cümləsinə əsasən göstərilən qanun qüvvəyə mindiyi günədək daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatını aparmış, 8.0.4-cü maddəsinə əsasən istinad edilən qanun qüvvəyə minənədək daşınmaz əmlak üzərində hüquqları təsdiq edən sənədlər vermiş "müvafiq icra hakimiyyəti orqanları" dedikdə *Əmlak Məsələləri Dövlət Komitəsi*, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Bakı Şəhəri İcra Hakimiyyəti və digər müvafiq yerli icra hakimiyyəti orqanları, habelə daşınmaz əmlaka hüquqların qeydiyyatını aparmış başqa dövlət orqanları nəzərdə tutulur;[6]

4.2.3. 4.3-cü maddəsinin birinci cümləsində (ikinci halda), *7.2-ci maddəsində və 12.2-ci maddəsində* nəzərdə

tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;[7]

4.2.4. 8.0.1-ci, 15.1.4-cü və 19.1-ci maddələrində müəyyən edilmiş "icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirir;

4.2.5. *5.1-1-ci maddəsinin ikinci cümləsində,* 5.4-cü maddəsinin ikinci cümləsində, 5.7-ci maddəsində, *9.3-cü maddəsinin ikinci cümləsində,* ~~*6.3-cü maddəsinin ikinci cümləsində,*~~ 10.1-ci maddəsinin üçüncü cümləsində, 10.4-cü maddəsində, ~~*12.2-ci maddəsində,*~~ 14.2-ci maddəsinin dördüncü cümləsində, 14.3-cü maddəsinin dördüncü cümləsində, 15.2-ci maddəsinin ikinci cümləsində, 16.1-1-ci maddəsində, 18.2-ci maddəsinin ikinci cümləsində, 19.1-ci maddəsinin dördüncü cümləsində və 20.6-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.[8]

4.2.6. 5.6-cı maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi həyata keçirir.[9]

~~*4.2.7. 6.3-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan müvafiq qurumlar" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri nəzərdə tutulur;*~~[10]

*4.2.8. 8.0.9.1.1-ci maddəsində, 8.0.9.2-ci maddəsində (hər iki halda)* ~~*, 8.0.10.2-ci*~~ *və 8.0.11-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;*[11]

*4.2.9. 8.0.12-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi nəzərdə tutulur.*[12]

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 avqust 2004-cü il
113

-
-
-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 7 fevral 2005-ci il tarixli **188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 64**)
2. 30 avqust 2005-ci il tarixli **286** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 8, maddə 718**)
3. 6 iyul 2006-cı il tarixli **426** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**)
4. 21 iyun 2007-ci il tarixli **593** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 606**)
5. 13 aprel 2010-cu il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**"Azərbaycan" qəzeti, 15 aprel 2010-cu il, 78, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 4, maddə 287**)
6. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**)
7. 24 noyabr 2011-ci il tarixli **526** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 26 noyabr 2011-ci il, 255; "Azərbaycan" qəzeti, 27 noyabr 2011-ci il, 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 11, maddə 998**)
8. 26 sentyabr 2013-cü il tarixli **986** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 27 sentyabr 2013-cü il, 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 09, maddə 1052**)
9. 10 dekabr 2013-cü il tarixli **42** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 15 dekabr 2013-cü il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1509**)
10. 3 fevral 2014-cü il tarixli **101** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzet, 5 fevral 2014-cü il, 24, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 108**)
11. 11 aprel 2014-cü il tarixli **145** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 aprel 2014-cü il, 74, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 361**)
12. 13 iyun 2014-cü il tarixli **182** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 14 iyun 2014-cü il, 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 632**)
13. 14 iyul 2015-ci il tarixli **559** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2015-ci il, 152 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 827**)
14. 29 sentyabr 2015-ci il tarixli **629** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 sentyabr 2015-ci il, 211 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 1016**)
15. 18 noyabr 2016-cı il tarixli **1118** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1825** )

16. 2 mart 2017-ci il tarixli **1270** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 348**)

17. 20 fevral 2018-ci il tarixli **1838** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 fevral 2018-ci il, 41, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 202**)

18. 20 fevral 2018-ci il tarixli **1839** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 fevral 2018-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 203**)

19. 17 iyul 2020-ci il tarixli **1111** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 21 iyul 2020-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 891**)

20. 22 dekabr 2020-ci il tarixli **1215** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 24 dekabr 2020-ci il, 271, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1477**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 7 fevral 2005-ci il tarixli **188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 64**) ilə 1.3-cü bənd çıxarılmışdır.

[2] 29 sentyabr 2015-ci il tarixli **629** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 sentyabr 2015-ci il, 211 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 1016**) ilə 1.4.3-cü yarımbəndi ləğv edilmişdir.

[3] 7 fevral 2005-ci il tarixli **188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 64**) ilə 3-cü bənddə "**İqtisadi İnkişaf Nazirliyinə**" sözləri "**Nazirlər Kabinetinə**" sözləri ilə əvəz edilmişdir.

[4] 7 fevral 2005-ci il tarixli **188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 64**) ilə 4.1-ci bənddə "**İqtisadi İnkişaf Nazirliyinin nəzdində**" sözləri "**Nazirlər Kabinetinin yanında**" sözləri ilə əvəz edilmişdir.

30 avqust 2005-ci il tarixli **286** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 8, maddə 718**) ilə 4.1-ci bənd çıxarılmışdır.

[5] 7 fevral 2005-ci il tarixli **188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 64**) ilə 4.2.1-ci bənddə "**İqtisadi İnkişaf Nazirliyinin nəzdində**" sözləri "**Nazirlər Kabinetinin yanında**" sözləri ilə əvəz edilmişdir.

21 iyun 2007-ci il tarixli **593** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 606**) ilə 4.2.1-ci yarımbəndindən «**Nazirlər Kabinetinin yanında**» sözləri çıxarılmışdır.

13 aprel 2010-cu il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Prezidentinin Fərman (**"Azərbaycan" qəzeti, 15 aprel 2010-cu il, 78, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 4, maddə 287** ) ilə 4.2.1-ci bəndindən "**6.2-ci,**" rəqəmi çıxarılmışdır.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**) ilə 4.2.1-ci bəndində "**Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

10 dekabr 2013-cü il tarixli **42** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 15 dekabr 2013-cü il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1509**) ilə 4.2.1-ci yarımbəndinə "**9.2-ci,**" sözlərindən sonra "**9.5-ci**," sözləri əlavə edilmişdir.

22 dekabr 2020-ci il tarixli **1215** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 24 dekabr 2020-ci il, 271, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1477**) ilə 4.2.1-ci yarımbəndində "**torpaq sahələri və torpaqla möhkəm bağlı olub təyinatına tənasübsüz (hədsiz) zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan bütün əşyalar**" sözləri "**binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər**" sözləri ilə əvəz edilmişdir.

[6] 6 iyul 2006-cı il tarixli **426** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə 4.2.2-ci bəndində "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi** " sözləri ilə əvəz edilmişdir.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610**) ilə 4.2.2-ci bəndində "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi** " sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

[7] 26 sentyabr 2013-cü il tarixli **986** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 27 sentyabr 2013-cü il, 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 09, maddə 1052**) ilə 4.2.3-cü yarımbəndinə "**4.3-cü maddəsinin birinci cümləsində (ikinci halda)**" sözlərindən sonra "**və 7.2-ci maddəsində** " sözləri əlavə edilmişdir.

14 iyul 2015-ci il tarixli **559** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2015-ci il, 152 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 827**) ilə 4.2.3-cü yarımbənddə "**və 7.2-ci maddəsində** " sözləri "**, 7.2-ci maddəsində və 12.2-ci maddəsində**" sözləri ilə əvəz edilmişdir.

[8] 24 noyabr 2011-ci il tarixli **526** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 26 noyabr 2011-ci il, 255; "Azərbaycan" qəzeti, 27 noyabr 2011-ci il, 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 11, maddə 998**) və 4.2.5-ci yarımbəndində "**12.2-ci** " rəqəmindən əvvəl "**6.3-cü maddəsinin ikinci cümləsində və** " sözləri əlavə edilmişdir.

13 iyun 2014-cü il tarixli **182** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 14 iyun 2014-cü il, 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 632**) ilə 4.2.5-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.2.5. 6.3-cü maddəsinin ikinci cümləsində və 12.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini~~

~~Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.~~

14 iyul 2015-ci il tarixli **559** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2015-ci il, 152 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 827**) ilə 4.2.5-ci yarımbənddən "**12.2-ci maddəsində,** " sözləri çıxarılmışdır.

-

2 mart 2017-ci il tarixli **1270** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 348**) ilə 4.2.5-ci yarımbənddən "**6.3-cü maddəsinin ikinci cümləsində,** " sözləri çıxarılmışdır.

20 fevral 2018-ci il tarixli **1839** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 fevral 2018-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 203**) ilə 4.2.5-ci yarımbəndinə "**5.7-ci maddəsində**," sözlərindən sonra "**9.3-cü maddəsinin ikinci cümləsində**," sözləri əlavə edilmişdir.

20 fevral 2018-ci il tarixli **1838** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 fevral 2018-ci il, 41, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 202**) ilə 4.2.5-ci yarımbəndinə "**5.4-cü**" sözlərindən əvvəl "**5.1-1-ci maddəsinin ikinci cümləsində**," sözləri əlavə edilmişdir.

-

[9] 3 fevral 2014-cü il tarixli **101** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 5 fevral 2014-cü il, 24, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 108**) ilə 4.2.6-cı yarımbənd əlavə edilmişdir.

[10] 11 aprel 2014-cü il tarixli **145** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 aprel 2014-cü il, 74, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 361**) ilə 4.2.7-ci yarımbənd əlavə edilmişdir.

2 mart 2017-ci il tarixli **1270** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 348**) ilə 4.2.7-ci yarımbənd ləğv edilmişdir.

[11] 18 noyabr 2016-cı il tarixli **1118** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1825** ) ilə 4.2.8-ci yarımbəndində "**8.0.9.1-ci**" sözləri "**8.0.9.1.1-ci**" sözləri ilə əvəz edilmişdir.

17 iyul 2020-ci il tarixli **1111** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 21 iyul 2020-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 891**) ilə 4.2.8-ci yarımbənddən "**, 8.0.10.2-ci**" sözləri çıxarılmışdır.

[12] 14 iyul 2015-ci il tarixli **559** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2015-ci il, 152 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 827**) ilə 4.2.7-ci yarımbəndin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdur həmin Fərmana 4.2.8-ci və 4.2.9-cu yarımbəndlər əlavə edilmişdir.